**Cəlilabadda fəaliyyət göstərən kafedə aşkarlanan nöqsanlara dair məlumat**

**(30 aprel 2024)**

Daxil olan vətəndaş müraciəti əsasında Cəlilabad rayonu, Göytəpə şəhərində fəaliyyət göstərən "Kamal" kafesində Qida Təhlükəsizliyi Agenliyinin əməkdaşları tərəfindən yoxlama aparılıb.

Yoxlama zamanı kafedə qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının bir sıra tələblərinin pozulduğu aşkarlanıb. Belə ki, qida emalı sahəsinin təmirsiz olduğu, qida məhsulları ilə təmasda olan səthlərdə təmizlik işlərinin aparılmadığı, obliqat qrupuna daxil olan işçi heyətin dövri tibbi müayinədən keçmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülüb, sahibkar barəsində inzibati protokol tərtib edilib. Eyni zamanda kafenin qida emalı sahəsinin fəaliyyəti məhdudlaşdırılıb.